**Ken Robinson**

# SİZ UŞAĞINIZ və MƏKTƏB

## Mükəmməl təhsilə doğru

qanun nəşriyyatı

**Ken Robinson**

and Lou Aronica

# YOU YOUR CHILD AND SCHOOL

## Navigate Your Way to the Best Education

Dünyanın hər yerində valideynləri narahat edən məsələlərdən biri övladlarının təhsilidir. Xüsusilə müasir dövrdə təhsil siyasəti minalanmış ərazi kimidir. Yanlış addım həyat bahasına başa gələ bilər.

Valideyn kimi övladlarımızın təhsilində nələrə diqqət etməliyik? Getdikləri məktəblərin onlara uyğun olduğuna əminikmi? Uyğun deyilsə, nə etməliyik?

Bələdçimiz dünyanın ən nüfuzlu pedaqoqlarından biridir. O biz valideynlərlə üzləşdiyimiz dilemmalar barədə səmimi söhbət edir.

Kitab müxtəlif təhsil formaları üzrə aydın prinsiplərdən bəhs edir və praktiki məsləhətlər verir. Bir çox mifləri dağıdır. Kritik məktəb seçimi mübahisələrinə son qoyur. Buna görə, uşağının təhsil ehtiyacını və bunun üçün nə etməli olduğunu öyrənmək istəyən valideynlərə şiddətlə tövsiyə olunur.

**Ken Robinson and Lou Aronica YOU, YOUR CHILD, AND SCHOOL**
**Ken Robinson SİZ, UŞAĞINIZ VƏ MƏKTƏB**
Bakı, Qanun Nəşriyyatı, 2023, 288 səh.

Janr: non-fiction/təhsil
Ölçü: 130x200 mm
Cild: yumşaq
Çapa imzalandı: 20.02.2023

| | |
|---|---|
| Naşir: | Şahbaz Xuduoğlu |
| İngilis dilindən tərcümə edən: | Lalə İsmayılova |
| Redaktor: | Nüşabə Hüseynova |
| Korrektorlar: | İradə İslamova, Bəsti Məmmədova |
| Texniki redaktor: | Aygül Yelmarlı |
| Mətn dizaynı: | Ramin Əli |
| Qapaq dizaynı: | Rafael Qasım |

Qanun Nəşriyyatı
Bakı, AZ 1102, Tbilisi pros., 76
Tel: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212 42 37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

ISBN 978-9952-38-611-0

© Qanun Nəşriyyatı, 2023
© 2022 by Sir Ken Robinson Ph.D & Lou Aronica

Bu kitabın Azərbaycan dilinə tərcümə və yayım hüquqları Qanun Nəşriyyatına məxsusdur. Kitabın təkrar və hissə-hissə nəşri "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında Azərbaycan Respublikasının Qanunu"na ziddir.

Ceyms və Keytə sevgi ilə

# Təşəkkür

Qədim Çin imperiyasında imtahan vərəqində soruşulan yeganə sualın "Nə bilirsiniz?" olması haqqında əfsanə var. Ən uzun cavabı verən namizəd işə qəbul olunardı. Valideynlər üçün təhsil haqqında kitab yazmağa başlayarkən həmin əfsanə yadıma düşdü. Təhsil xeyli məsələni özündə ehtiva edir. Ailələr bir-birindən elə fərqlidir ki, adam bəzən nə deyəcəyini bilmir. Əslində, cavab, sadəcə, daha vacib olduğunu düşündüyüm mətləbə fokuslanmaq və bu məsələlərlə bağlı istənilən müzakirənin şəxsi dəyərlərdən tamamilə ayrı olmadığını qəbul etmək qədər sadədir. Haqqında danışacaqlarımın çoxu ciddi tədqiqatlara, peşəkar təcrübələrə əsaslanır. Mümkün qədər obyektiv olmağa çalışmışam. Bəziləri, təbii ki, mənim şəxsi fikirlərimə də əsaslanır. Mən nəyin necə olmasının və hər ikisinin də hansı səbəbdən vacibliyini aydın izah etdiyimə inanıram.

Təhsil hamının hər şeyi bilməyəcəyi qədər geniş sahə olduğundan məsləhətlər aldığım və səhvlərimi deyib məni doğru səmtə yönləndirən hər kəsə dərin minnətdarlığımı bildirirəm. Hamının adını qeyd etmək çətin olsa da, xüsusi məsələlərdə mənə mütəxəssis məsləhəti verən bu şəxslərə təşəkkürümü bildirirəm: Lili Eskelsen Qarsia, Laura Qross, Bob Morrison,

Endi Harqrivz, Devid Prays, Piter Qemvell, Hedli Ferqyuson, Riçard Qerver, Pasi Salberq, Keyt Robinson, Entoni Dann, Cerri Mins, Elliot Uoşor, Ceyms Robinson, Sintiya Kampoy Brofi, Mitçel Bass, Mişel Kinder və Hizer Brayant.

Kitabın ərsəyə gəldiyi müddətdə verdiyi dəyərli məsləhətlərə və nəşrin əsasını təşkil edən tədqiqatların, müsahibələrin, araşdırma nümunələrinin çoxunu öz üzərinə götürdüyünə görə tərəfdaşım yazıçı Lu Aronikaya xüsusi təşəkkürümü bildirirəm. Həmişə olduğu kimi, işimə olan böyük həvəsinə və kitabı tanıtmaqda göstərdiyi misilsiz xidmətlərə görə ədəbi redaktorumuz Peter Millerə minnətdaram. Yazmaq üçün vaxta ehtiyacım olanda başqalarının mənə mane olmasının qarşısını aldığına və vaxtımı doğru planlamaqda kömək etdiyinə görə Codi Rouza "Çox sağ ol" deyirəm. "Penguin Random House"da çalışan görkəmli naşirimiz Ketrin Kort və onun bacarıqlı köməkçisi Viktoriya Savanın peşəkar yanaşması olmasaydı, indi bu kitabı əlinizdə tuta bilməzdiniz. Hər şeydən əvvəl mənə olan böyük inamına və hər addımımda göstərdiyi dəstəyə görə həyat yoldaşım, peşəkar tərəfdaşım Terriyə minnətdaram. Bir də həmişəki kimi, dəyərli oxucularım, sizə də təşəkkür edirəm.

# Mündəricat

**Təşəkkür ........................................................................ 7**

Öz yolunuzu tapın........................................................................ 11
Öz rolunuzu bilin ........................................................................ 44
Uşağınızı tanıyın........................................................................ 62
Onları güclü böyüdün ........................................................................ 81
Məktəblər nə üçündür ........................................................................ 116
Düzgün məktəbi seçin ........................................................................ 141
Kökünə çatın ........................................................................ 181
Əlaqələri gücləndirin ........................................................................ 215
Problemlə mübarizə aparın ........................................................................ 238
Gələcəyə baxın ........................................................................ 265

# Birinci fəsil

## Öz yolunuzu tapın

Övladınız məktəblidirsə, deməli, bu kitab sizin üçündür. Məqsədim uşaqlarınızın həyatını daha səmərəli etmək, uğurlu karyera qurmaq üçün lazım olan təhsili almaqda onlara yardımçı olmaqdır. Bütün peşəkar həyatım boyu təhsil sahəsində çalışmışam. Bu dövr ərzində valideynlərlə məktəb haqqında saysız-hesabsız söhbətlər etmişəm. Mən də valideynəm və bunun çox böyük xoşbəxtlik olmaqla yanaşı, həm də çətin, məsuliyyətli olduğunu bilirəm. Uşağınız məktəbdə oxumağa başladıqda vəziyyət daha da mürəkkəbləşir. Bu vaxtadək onların əsasən inkişafına və rifahına görə məsuliyyət daşıyırdınızsa, indi artıq vaxtlarının çoxunu başqaları ilə keçirməsinə və fərd olaraq formalaşdıqları dövrdə həmin "başqalarının" övladınızın həyatına təsir göstərməsinə icazə verirsiniz.

Məktəbə ilk dəfə getdiklərini görmək sizdə fərqli duyğular oyadır. Öyrənməyə həvəslə yanaşacaqlarına, yaxşı dostlar tapacaqlarına, məktəbdə xoşbəxt olacaqlarına və onlar üçün yeni olan mühitdən ilham alacaqlarına ümid edirsiniz. Eyni zamanda, güman ki, ürəyinizi qorxu hissi bürüyür. Çünki məktəb özü

ilə birlikdə yeni münasibətlər də gətirir. Uşaqlarınız müəllimlərinə necə cavab verəcək? Məktəb onların özəl tərəflərini görə biləcəkmi? Bəs digər valideyn və uşaqlar necə? Uşağınız yeni sosial maneələri dəf edə biləcəkmi, yoxsa haradasa ilişib qalacaq?

Şübhəsiz, uşağınız məktəb binasına doğru addımladığı ilk gün siz suallarla üz-üzə qalacaqsınız. Heç nəyin həmişəki kimi olmayacağını düşünməkdə, bəli, haqlısınız.

Emma Robinson (qohum deyilik) İngiltərədə çalışır, müəllimdir. Həm də anadır və övladını ilk dəfə məktəbə göndərməyin necə hiss olduğunu yaxşı bilir. Emma minlərlə valideynin paylaşdığı "Əziz müəllim" şeirinin müəllifidir. Şeirdən bir parçanı yadınıza salıram:

İş çox, vaxt az, müəllim,
İlk gün yetişdi, budur.
Sinif dolub uşaqla
Bu da mənim oğlumdur.

Əminəm ki, siz işi
Bu iş də sizi seçib.
Oğlum çox balacadır,
Dörd yaşa yeni keçib.

Çox çalışqan görünür
Məktəbli formasında.
Məktəbin böyük yükün
Daşıyarmı balam da?